**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№313/3** **31 oktyabr 2019-cu il**

**İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər barədə**

Azərbaycan Respublikası Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.1.4-cü "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan auditor təşkilatlarına və sərbəst auditorlara qarşı xüsusi tələblərin hazırlanması" bəndinin icrasını təmin etmək məqsədilə sərbəst auditor E.İbrahimov və Palatanın Şurası yanında Elm və auditin metodoloji təminatı üzrə komitənin sədri N.Talıbov tərəfindən hazırlanmış və 2019-cu ilin 27 fevral tarixində Auditorlar Palatasında keçirilmiş "Dəyirmi masa"da verilən təklif və tövsiyələr nəzərə alınmaqla yenidən işlənilmiş "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər" təsdiq edilsin (əlavə olunur).
2. Sədrin müşaviri F.Qarayevə tapşırılsın ki, on gün müddətində "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in ictimai əhəmiyyətli qurumlara və publik hüquqi şəxslərə göndərilməsi təmin edilsin.
3. Auditin təşkili, hesabatlılıq və təhlil şöbəsinə (V.Cavadov) tapşırılsın ki, on gün müddətində "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in auditor təşkilatlarına və sərbəst auditorlara çatdırılması təmin edilsin.
4. Bu qərarın, "İctimai əhəmiyyətli qurumlarda və publik hüquqi şəxslərdə maliyyə hesabatlarının auditini aparan kənar auditorlara qarşı xüsusi tələblər"in mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**